Azərbaycan Respublikası Vəkillər
Kollegiyasının Rəyasət Heyətinin sədri
cənab Anar Bağırova

27 saylı Vəkil Bürosunun direktoru
cənab Rasim Verdiyevə

Bakı şəh, Qaradağ r-nu, Qobu park 2,
Yaşayış kompleksi Bina 22, blok 2, mən 45.
Mob: 099-340-55-25

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4866
« 17 » 12 2025 il

# Təşəkkür Məktubu

Atam Cavadov Rafail Atlıxan oğlu xüsusi amansızlıqla qəsdən adam öldürməyə, yəni xüsusi amansızlıqla qəsdən həyatdan məhrum etməyə cəhd etməsinə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 29,120.2.4-cü maddəsi ilə təqsirləndirilmişdir. Həmin cinayət işi üzrə Ali Məhkəməsində keçirilən məhkəmə prosesində atamın hüquqlarının müdafiəsi üçün maddi vəziyyətimizin çətinliyi ilə bağlı vəkil tuta bilməmişdim. Buna görə də məhkəmə dövlət hesabına atamın hüquqlarının müdafiəsi üçün dövlət hesabına vəkil ayrılması barədə qərar qəbul etmişdir. Həmin qərara əsasən dövlət hesabına xoşbəxtlikdən Cumayev Binyamin Vaqif oğlu ayrılmışdır. Sözün düzü düşünürdüm ki, dövlət hesabına verilən vəkillər müdafiə etdiyi şəxsi yaxşı formada müdafiə etmir. Çünki ətrafımda olan bəzi insanlardan əvvəllər eşidirdim ki, dövlət hesabına tutulan vəkillər yaxşı vəkil xidməti göstərilmir, çünki elə böyük qazancları olmur. Həmçinin atamın Bakı Ağır Cinayətlər Məhkəməsində atamın hüquqlarını dövlət hesabına müdafiə olunmasına təyin edilən vəkilin xidmətləri, bundan başqa Bakı Apelyasiya Məhkəməsində öz hesabıma tutduğum vəkilin də xidmətləri məni qane etməmişdir. Lakin bir məhkəmə proseslərində atam üçün dövlət hesabına ayrılmış vəkil Binyamin Cumayev mənim bu fikirlərimi alt üst etdi. Onun məhkəmə proseslərində işin dərindən araşdırılması üçün can yandırdığını, keyfiyyətli hüquqi yardım göstərdiyini, məni səbrlə

dinləyib suallarıma aydın cavab verməyi gördükdən sonra inamım daha da artdı. Nəticə etibarı ilə isə atamın həbs müddəti 11 il 3 aydan 7 il 10 aya endirildi.

Hərdən düşünürəm ki, öz pulumla gedib vəkillə müqavilə bağlasaydım belə uğurlu nəticə bəlkə də, qətin alınardı.

Buna görə də Sizə və cənab prezidentə öz təşəkkürümü bildirirəm. Cənab prezident Sizin kimi şəxsləri belə vəzifələrə təyin etdikdə əlbəttə ki, Sizdə Binyamin Cumayev kimi savadlı və bilikli vəkillər seçəcəksiniz. Belə halların şahidi olduqca mənim ölkəmizdə ədalətin və hüququn daha da inkişaf edəcəyinə inamım artır.

Ona görə də, Sizə və vəkilim Binyamin Cumayevə minnətdarlığımı çatdırmaq üçün Sizə bu təşəkkür məktubunu yazmağı özümə borc bildim.

Bir daha təşəkkür edirəm!

Hörmətlə,
Cavadova Rəna Rafail qızı